*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 310-315*

https://doi.org/10.62837/2025.2.310

**BAHADURZADƏ RƏNA NİZAMİ qızı**
"Sumqayıt Dövlət Universitetinin nəzdində
Sumqayıt Dövlət Texniki Kolleci" PHŞ
müəllim
***bahadurzade.rena@mail.ru***

# A.BAKIXANOV YARADICILIĞI KONTEKSTİNDƏ "TƏRBİYƏ"

**Xülasə**

Məqalə Abbasqulu ağa Bakıxanovun yaradıcılığında elm, əxlaq və tərbiyə məsələlərinin öyrənilməsinə həsr edilmişdir. Məqalədə elmə, təhsilə yönələn fikirlər ortaya çıxararaq müqayisəli təhlillər aparılmışdır. Söz, zəka gücü ilə xalqını irəli aparan, əslində mənəvi düşüncəmizdə, elm, əxlaq, tərbiyə istiqamətində deyimlərilə həqiqi qəhrəmanlıq, parlaq ziyalılıq nümunəsi göstərən Abbasqulu ağa Bakıxanovun həyat və yaradıcılıq yolu nəsillərə örnək olmuşdur.

A.Bakıxanovun daha çox pedaqoq, əxlaq nəzəriyyəçisi kimi səciyyələndirən "Nəsihətlər" əsəri ədibin yaradıcılığında elm, əxlaq və tərbiyə məsələləri barədə geniş danışmağa imkan yaradır. Qeyd olunan epik əsəri ədəbiyyat, mədəniyyət, əxlaq, pedaqogika tariximiz üçün çox qiymətlidir. Müasir həyatın özəyini təşkil edən gənclərin təlim-tərbiyəsi məsələsi ən populyar məsələlərdən biridir. Məqalədə irəli sürülən fikirlər, əxlaqi-etik fikirlər təkcə öz zamanı üçün deyil, bütün zamanlardan ötrü olduqca vacibdir, gərəklidir.

**Açar sözlər:** tərbiyə, xeyirxahlıq, mənfi və müsbət keyfiyyətlər, hörmət, insan, əxlaq, xəsislik

Tarixi təcrübə insanlıq tarixi sübut etmişdir ki, xalqın içindən çıxan tarixi şəxsiyyətlər, ünlü simalar təkcə xalqının, millətinin tanınma nişanına çevrilmir, bununla xalqının yaddaşında, milli kimliyinin formalaşmasında, sivil dünya mədəniyyətinə qovuşmasında müstəsna xidmətlər göstərirlər. Məlumdur ki, milli-mənəvi dəyərlər ümummilli, bəşəri dəyərlər kimi zamanın sınaqlarından keçə-keçə formalaşır, daşlaşır, xalqın və millətin formalaşmasında ölçü vahidinə çevrilir. Bu səbəbdəndir ki, belə bir ölçü vahidini qorumaq, daha da zənginləşdirmək müdriklərə, dahilərə, özlərinin əməli ilə seçilən, xalqın milli-mənəvi dəyərlərini qoruyan, duyan cəmiyyətin inkişafında bu qanunauyğunluqları insanların mənəvi və vətəndaşlıq borcu bilən tarixi şəxsiyyətlərə, söz sərraflarına, el müdriklərinə nəsib olmuşdur.

Şərq ədəbiyyatında didaktika dedikdə daha çox Sədi Şirazi yada düşür. Lakin bütün qüdrətli yaradıcı simaların hədəfi insan olduğundan yer üzünün əşrəfi sayılan yaradılışın mənəviyyatının zənginləşməsinə, əxlaqi gözəlliyin tərənnümünə xüsusi diqqət yetirilmiş, əxlaqi-didaktik səpkidə bir-birindən gözəl əsərlər yazılmış, fikirlər

söylənilmişdir. Əgər epoxal bir şəkildə mövzuya aydınlıq gətirməyə çalışsaq, insan gözəlliyinin, əxlaqi kamilliyin əsasında, elmin, təhsilin, maarifin, maarifçiliyin dayandığını xüsusi olaraq qeyd etməliyik.

Lakin etiraf olunmalıdır ki, maarifçilik ideyalarının bədii düşüncədə davamlı olaraq ifadəsi daha çox XIX əsrin birinci yarısında Mirzə Şəfi Vazehin, İsmayıl bəy Qutqaşınlının, xüsusən ensiklopedik təfəkkür sahibi Abbasqulu ağa Bakıxanovun ədəbi-elmi fəaliyyəti ilə bağlıdır.

A.Bakıxanov dövrünün görkəmli ziyalısı olaraq vəziyyəti düzgün qiymətləndirir, cahilliyi, xurafatı, digər zərərli halları yalnız elmin, təhsilin qüdrəti ilə aradan qaldırıla biləcəyini dərk edərək həm elmi, həm də bədii əsərlərində elm və əxlaq məsələlərinə geniş meydan vermiş, daha çox gəncliyə müraciətlər etmişdir. Bu cəhət özünü daha çox ədibin 102 nəsihətdən ibarət olan məşhur "Nəsihətlər" əsərində göstərmişdir.

"Nəsihətlər"in girişində ədib əsərinin zərurətdən, ehtiyacdan yarandığını alim-pedaqoq baxışı, mövqeyi ilə izah edərək balalarımız üçün başa düşəcəyi bir dildə, anlaşıqlı şəkildə kitablar yazılmasının vacibliyini əsaslandırır. Maraqlı cəhət həm də ondadır ki, yazıçı-didaktik uşaqlara nəsihət etməzdən əvvəl insanla digər canlılar arasında fərqin insanın savadında, qabiliyyətində olduğunu izah edir, uyğun misallar söyləyir.

Əsərlə tanış olduqda iki əsas məsələyə daha çox diqqət yetirildiyinin şahidi oluruq. Bunlardan birincisi, elm və təhsildirsə, ikincisi əxlaq və tərbiyə məsələləridir.

Məlum məsələdir ki, bu bir ənənə, eldən, xalqdan gələn adətdir ki, vəzifədə, yaşda böyük olan insanlara xalq arasında hörmət və diqqət yetirirlər.

A.Bakıxanov həmin məqamlara aydınlıq gətirməklə elmi, biliyi də həmin cərgədə qoyaraq təqdim edir: "Hər kəs vəzifədə, elmdə və yaşda səndən böyüksə, ona hörmət elə ta ki, səndən kiçiklər də sənə hörmət etsinlər." [1, s.67]. Yazıçı elmi, təhsili əziz tutmağın konkret səbəbləri barəsində danışaraq hər nəyə, hər yaxşılığa elm və kamal vasitəsilə çatmağın mümkün olduğunu göstərmişdir.

İnsanlar var-dövləti, sərvəti çox sevir, ona can atırlar. Yazıçı elmlə, sərvəti müqayisə edərək elmə üstünlük vermiş, elmin ən böyük sərvət olduğunu bildirərək demişdir: "Ağıldan və elmdən yaxşı bir dövlət yoxdur. Çünki onlar həmişə səninlə olar və heç kəs onları sənin əlindən ala bilməz." [1, s.70].

Elm, kamal biliklə yanaşı, əxlaq, mərifət də insanı fərqləndirən,hörmətə çatdıran əsas keyfiyyətlərdəndir. Dahi Azərbaycan şairi M.Füzuli rübailərindən birində çox gözəl demişdir ki:

Elm ilə, ədəblə tapılar şərəf,
Mirvari olmasa, nə lazım sədəf?
Fürsətin var ikən sən işsiz qalma,
Boş yerə ömrünü gəl etmə tələf. [6, s.444].

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 310-315*

Həqiqətən də belədir. Elmli insan,təhsilli adam heç zaman pis işlərlə, əxlaqdan kənar hərəkətlərlə məşğul olmaz. Elmin işığı buna imkan verməz. Paxıl, bədxah insanlar isə bu uca insani keyfiyyətlərdən məhrumdurlar. Əsərin bir çox yerində "əxlaqlı insan necə olmalıdır" xarakterli, suallara cavab verən yazıçı gəncliyi yüngül hərəkətlərdən, xəyanətdən, xəsislikdən, qərəzdən, təkəbbürdən uzaq olmağı tövsiyə edir. Ədib paxıllıq haqqında xüsusilə daha geniş danışmış, paxıllığı qabiliyyətsizlik əlaməti adlandırmış, bu yandırıcı oddan uzaq olmağı tövsiyə edərək demişdir:

" Paxıllıqdan daha betər yandırıcı od yoxdur. Paxıl adamlar heç vaxt rahat yaşaya bilməz. Onun öz dərdi və başqalarının şadlığı hər ikisi ona müsibət olar." [1, s.69].

A.Bakıxanovun bütün yaradıcılığında tərbiyə problemi qırmızı xətt kimi özünü göstərir. O, bu problemi özü üçün həmişə ən önəmli vəzifə sayıb, özünün dediyi kimi: "Mən nə qədər axtardımsa, anlaşılan bir dil ilə onların əxlaq gözəlliyinə dəlalət etsin. Bəzi işlənməkdə olan kitablar o qədər qarışıq-dolaşıq ibarələrlə yazılmışdır ki, müəllimlərin çoxu özləri onları dərk edə bilmirlər. Bəzi kitablar isə, o qədər uzun və pərakəndədir ki, onları anlamaq çox çətindir. Bu kitablarda "Uşaqlıqda öyrənilən elm daşa qazılmış şəkil kimidir" zərbül məsəlinin məzmunundan qəflət olunur. Uşaq yaşlarında hər zamandan daha artıq əxlaq gözəlliklərini onlara öyrətmək lazımdır. Pis xasiyyətlər təkrar olunduğu zaman adətə çevrilib uşaq təbiətinə daxil olduğdan sonra, onlara elm və ədəb öyrətmək müşkül olar" [4, s.116].

Abbasqulu ağa Bakıxanov uşaqları xeyirxahlığa, düzlüyə, özündən böyük və kiçiklərə hörmət etməyə, ağıllı, bilikli olmağa çağırır. O, uşaqlara üz tutaraq onların milli adət-ənənələri əsasında tərbiyə edilməsini tövsiyyə edir.

Abbasqulu ağa Bakıxanov uşaqlara müraciət edərək deyir: "Ey mənim əzizim. Sən insansan. İnsan dünyada hər şeydən üstün yaranmışdır. Görürsənmi ki, heyvanlar o qədər böyük bədən və güc ilə insanın əlində əsirdirlər. Bu isə işi yaxşı bacarmaq səbəbindəndir. İnsanlar arasında hər kəs çox bilikli və iş bilən olsa, həmişə hörmətli olar. Deməli, gərək iş bilmək və yaxşılıq etmək qaydalarını o adamlardan öyrənmək lazımdır ki, onlar həyatda təcrübəli və qabiliyyətli olmuşlar. Belə adamların sözləri bizə nəsihətdir.. [1, s.67].

A.Bakıxanov sanki uşaq və gənclərlə üzbəüz oturub onlarla söhbət edir, onlara nəsihət verir. A.Bakıxanovun fikrincə adam gərək nəzakətli, ədəbli olsun. Özündən böyüyə və yaşıdlarına hörmət etsin. Əclaf və hərzə adamlardan kənar gəzsin. A.Bakıxanovun fikirləri bu günümüzlə səsləşir. Bəli, bu gün də müəllim və tərbiyəçilər, pedaqoq və psixoloqlar gənclərimizin mənəvi tərbiyəsinə qayğı ilə yanaşır, onları paxıllıqdan, pislikdən, qeybətçilikdən çəkindirirlər. Onları mənən təmiz, saf olmağa çağırırlar. A.Bakıxanovun yaradıcılığında hələ vaxtı ilə bu məsələ çox ciddi şəkildə qoyulmuşdur. Abbasqulu ağa Bakıxanovun fikrincə insan nə qədər təvazökar olsa o qədər başqaları tərəfindən sevilər, əksinə eqoist olarsa insanlarda özünə qarşı ikrah hissi yaradar. O, deyir ki, "bir adamı ehtiyac içində görəndə nə

qədər bacarırsan ona kömək et ki, sənin bir şeyə ehtiyacın olanda başqaları da sənə kömək etsin. Heç kəsin pisliyini başqasına söyləmə. Çünki əgər şəxs sənə düşməndirsə bu sözləri həmin adama çatdırar. Əgər dostdursa sənin haqqında pis fikrə düşər" [1, s.68].

Yalançı adamı Allah da sevmir. Yalançılıq pis bir peşədir. Yalançı adamın qəlbi çirkin və qəzəbli olar. Yalançı adam rəzil və xudbindir. Belələri cəmiyyət üçün ağır yükdür. Bakıxanov bunu hələ XIX əsrin birinci yarısında ürəkağrısı ilə demişdir.

"Hər kəs başqasının eybini sənə açıb desə ondan ondan uzaq ol. Çünki o, sənin də eybini başqasına söyləyər…[1, s.68].

-Insan qəzəbli olanda onun ağlı yerindən oynayır. Elə hallarda özünü hər şeydən çəkindir və hər işi acığın keçəndən sonra icra elə. [1, s.68].

-Sənə tapşırılmayan işi görməyə çalışma. Çünki, ondan xeyir görməzsən və öz işindən də geri qalarsan. [1, s.68].

-Tənbəllikdən qorx ki, o bütün eyiblərdən daha pisdir. Çünki, bu dünyada hər şey işsiz deyildir. [1, s.68].

…. Bir şey o biri şey olmadan yaşaya bilməz. Sən də onlardan birisən. Əgər işsiz qalsan daş və palçıq səndən daha yaxşıdır. Çünki, onlar ev tikməyə yarayırlar" [1, s.68].

A.Bakıxanov insan əxlaqına, zəkasına üstünlük verirdi. İnsanda bu əxlaqi keyfiyyətdən ülvi bir şey olmadığını göstərirdi. Onun fikrincə ağıl, bilik, təfəkkür, bir-biri ilə vəhdət təşkil edir. Bilikli adamlar ağıllı olur, ağıllı adamlar isə təvazökar və xoşsifət olur, özlərini öymür, sadə və təvazökar, güzəştə gedən olurlar. Cəmiyyətə artıq yük olmurlar. Adamlara zərər vermirlər. Onun fikrincə "ağıldan və elmdən daha yaxşı bir dövlət yoxdur. Çünki onlar həmişə səninlə olar və heç kəs onları sənin əlindən ala bilməz. [1, s.70].

-Bir adama nəsihət vermək istəyib onun işinin səlahını demək istəsən xəlvətdə de ki, xalq arasında qəbul etməz. Hələ bəlkə səndən inciyər də. [1, s.70].

-Hər nə vəd vermişsənsə, onu yerinə yetirməyə çalış ki, başqa vədə verəndə onu icra ediləcəyinə də inansınlar. [1, s.70].

İnsan insana əl tutmalıdır, dayaq olmalıdır. İnsan yaxşılıq etmək üçün doğulub, pislik üçün yox. Yaxşı adam rəhmət, pis adam isə lənət qazanır. A.Bakıxanov yaxşılığa çox böyük əhəmiyyət verərək onu şəxsiyyətin ən gözəl əxlaqi keyfiyyəti kimi xarakterizə etmişdir. Həqiqi insan, mənən təmiz olub yaxşılığı təmənnasız etməlidir. Elə adamlar olur ki, yaxşılıq etdiyi adama, həmin yaxşılığın kim tərəfindən edildiyini xoşlamır. A.Bakıxanovun fikrincə "insan etdiyi yaxşılığı yadına saldıqca elə bir zövq alır ki, heç bir dövlət ona çatmaz, pis iş tutmuş adam isə əməlini düşündükcə xəcalət çəkir". [1, s.71]. Pis işin sahibi əməlini büruzə verməzsə də, batində daim özünü məzəmmət edər və onun cəzasının qorxusundan asudə olmaz.

A.Bakıxanov böyük şəxsiyyətdir. Onun yaradıcılığı pedaqoji fikirlərlə zəngindir. Anatom və fizioloqlar insanın bütün əzələ və sümüklərini, sinir sistemini

incəliklərə böldükləri kimi, A.Bakıxanov da sanki insanı qarşısına qoyub onun psixoloji portretini yaradır. Onun psixoloji simasını təhlildən keçirir. Bu baxımdan onun əsərləri psixoloqlar və uşaqların tərbiyəsi ilə məşğul olanlara bir ümid verir.

Nəticə olaraq onu qeyd etmək istəyirəm ki, yazıldığı dövrdən, tarixdən (1836) təxminən iki əsrə bərabər bir zaman keçməsinə baxmayaraq, görkəmli Azərbaycan şairi, yazıçısı A.Bakıxanovun "Nəsihətlər" əsəri bu gün də olduqca çox aktualdır, yetişməkdə olan nəsillərin milli-mənəvi dəyərlər ruhunda formalaşmasında əvəzsiz xidmətini göstərməkdədir.

**BAHADURZADA RANA NIZAMI'S GIZI,**

## "EDUCATION" IN THE CONTEXT OF A. BAKIKHANOV'S CREATIVITY
## SUMMARY

The article is devoted to the study of science, morality and education issues in the work of Abbasgulu aga Bakikhanov. The article reveals ideas directed towards science and education and conducts comparative analyses. The life and creative path of Abbasgulu aga Bakikhanov, who led his people forward with the power of words and intelligence, and who in fact showed an example of true heroism and brilliant intellectuality in our spiritual thought, science, morality and education with his sayings, has become an example for generations.

A. Bakikhanov's work "Admonitions", which characterizes him more as a pedagogue and moral theorist, provides an opportunity to talk extensively about the issues of science, morality and education in the work of the writer. The mentioned epic work is very valuable for our history of literature, culture, morality and pedagogy. The issue of training and education of young people, which is the core of modern life, is one of the most popular. The ideas and moral-ethical ideas put forward in the article are very important and necessary not only for their time, but for all times.

**Key words:** education, kindness, negative and positive qualities, respect, man, morality, greed

**БАХАДУРЗАДЕ РЕНА НИЗАМИ КЫЗЫ,**

## «ОБРАЗОВАНИЕ» В КОНТЕКСТЕ ТВОРЧЕСТВА А. БАКИХАНОВА
## РЕЗЮМЕ

Статья посвящена исследованию вопросов науки, нравственности и образования в творчестве Аббасгулу ага Бакиханова. В статье проведен сравнительный анализ, выявляя идеи, направленные на науку и образование. Образ жизни и творчество Аббасгулу ага Бакиханова, который силой слова и

ума вел свой народ вперед, и фактически подал пример истинного героизма и яркой интеллектуальности в нашем духовном мышлении, науке, нравственности, образовании, был примером для поколений.

Произведение А. Бакиханова «Увещевания», характеризующее его скорее как педагога и теоретика морали, дает возможность широко поговорить о вопросах науки, морали и воспитания в творчестве писателя. Упомянутое эпическое произведение имеет большую ценность для нашей истории литературы, культуры, нравственности и педагогики. Вопрос обучения и воспитания молодежи, являющийся основой современной жизни, является одним из самых популярных. Идеи и морально-этические идеи, изложенные в статье, очень важны и нужны не только для своего времени, но и для всех времен.

**Ключевые слова:** образование, доброта, отрицательные и положительные качества, уважение, человек, мораль, жадность

## Ədəbiyyat

1. Bakıxanov A. Seçilmiş əsərləri, “Avrasiya press”, Bakı, 2005 s.487
2. Göyüşov Z. Əxlaqi sərvətlər, Bakı, 1966
3. Hüseynov H.N. XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən. Bakı, 2006, 543 s.
4. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi, Bakı, Maarif, 1974 s.486
5. Məmmədov X. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 2006
6. Məhəmməd F. Əsərləri, altı cilddə, III cild. “Şərq-Qərb”. Bakı,2005 s.472
7. www.anl.az/down/medeniyyet/2020/iyul/715402.htm.

**Rəyçi: Yədulla Ağazadə, LDU, filologiya elmləri doktoru, professor**